# Berlində 20 Yanvar şəhidlərinin xatirəsi yad edilib



Azərbaycanın Almaniyadakı səfirliyində 20 Yanvar faciəsinin 26-cı ildönümü ilə əlaqədar anım mərasimi keçirilib. Mərasimə Almaniya Xarici İşlər Nazirliyinin, müxtəlif siyasi, iqtisadi, elmi və mədəni dairələrin, diplomatik korpusun, Azərbaycan diasporunun nümayəndələri və alman mətbuatının təmsilçiləri iştirak ediblər.

Əvvəlcə 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Azərbaycanın Almaniyadakı səfiri Pərviz Şahbazov tədbir iştirakçılarına faciənin baş verdiyi dönəmdə Sovet İttifaqı rəhbərliyinin Dağlıq Qarabağda erməni separatçılığı və azərbaycanlıların Ermənistandan qovulması hallarına göz yummasının Azərbaycan xalqının haqlı narazılığına səbəb olması, Bakıda bir milyondan artıq vətəndaşın suverenlik hüquqları tələb etdikləri etiraz aksiyaları və sovet rəhbərliyinin xalqın etiraz səsini boğmaq üçün əl atdığı 20 Yanvar cinayəti barədə məlumat verib. Səfir bildirib ki, xalq bu hadisələrə etiraz aksiyalarını genişləndirməklə və öz şəhidlərinin izdihamlı dəfn mərasimini keçirməklə cavab verdi. O zamanlar Moskvada yaşayan ümummilli liderimiz Heydər Əliyev 20 Yanvar hadisələrinin ertəsi gün keçirdiyi mətbuat konfransında sovet rəhbərliyinə qətiyyətlə etiraz etdi. Pərviz Şahbazov müstəqil Azərbaycan Respublikasının şəhidlərimizin uğrunda həyatlarını qurban verdikləri azadlıq, suverenlik və demokratik dövlətçilik dəyərlərinin keşiyində dayandığını, milli maraqlara uyğun müstəqil siyasət yürütdüyünü vurğulayıb. Dağlıq Qarabağ münaqişəsindən danışan səfir torpaqlarımızın işğalına son qoyulmasının, qaçqın və məcburi köçkünlərin yurd-yuvalarına qayıtmasının Azərbaycan dövlətinin onun müstəqilliyi uğrunda şəhid olmuş vətəndaşların ruhu qarşısında müqəddəs borcu olduğunu deyib. Bildirib ki, hər il 20 Yanvar hadisələrinin ildönümü Azərbaycan Respublikasının Prezidenti başda olmaqla xalqımız tərəfindən şəhidlərimizin əziz xatirəsinə ehtiramla qeyd edilir.

Tədbirdə çıxış edən Berlin Xəzər və Qafqaz Araşdırmaları üzrə Avropa İnstitutunun rəhbəri Matias Dornfelt Azərbaycanın müstəqillik illərində yürütdüyü siyasəti və əldə etdiyi nailiyyətləri təhlil edib. O, dövlətimizin regionda və dünyada artan rolunu, müstəqil və balanslı xarici siyasətini, Avropanın enerji təchizatında oynadığı konstruktiv rolu vurğulayıb. Matias Dornfelt Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanın sabitlik dövrünə qədəm qoyduğunu bildirib, müstəqillik illərində ölkəmizdə həyata keçirilmiş islahatları, demokratik dövlət quruculuğunu, iqtisadi və sosial layihələri yüksək qiymətləndirib.

Matias Dornfeld çıxışında Azərbaycanın multikulturalizm və dini tolerantlıq dəyərlərini xüsusi vurğulayıb. O deyib ki, Azərbaycan müxtəlif din və mədəniyyətlərin nümayəndələrinin tarixən dinc şəraitdə yaşadığı məkan olub və Azərbaycan hökumətinin siyasətində bu dəyərlərin təşviq edilməsi mühüm yer tutur.

Tədbirin rəsmi hissəsindən sonra hazırda Hannover Musiqi, Media və Teatr Akademiyasında təhsil alan gənc və istedadlı azərbaycanlı musiqiçi, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, beynəlxalq müsabiqələr laureatı Nərmin Nəcəflinin ifasında Azərbaycan və Qərb bəstəkarlarının əsərlərindən ibarət anım konserti olub.

Həmçinin 20 Yanvar faciəsindən bəhs edən tarixi fotoşəkillərdən ibarət sərgi, eləcə də müxtəlif əyani vəsaitlər tədbir iştirakçılarına təqdim edilib.

**AZƏRTAC**